ATƏT-in Bakı Ofisi tərəfindən maliyyələşdirilən
Qeyri-Hökumət Təşkilatlarının
Dövlət Qeydiyyatının Monitorinqi Layihəsi çərçivəsində

hüquqşünas-ekspertlər
Anar Kazımov və Hafiz Həsənov tərəfindən hazırlanmış

**2004-cü il üzrə**

# H E S A B A T

ATƏT-in Bakı Ofisi

# I. MÜQƏDDİMƏ:

ATƏT-in Bakı ofisinin xahişi ilə qeyri-hökumət təşkiltlarının qeydiyyatının monitorinqi müstəqil hüquqşünaslar tərəfindən həyata keçirilib. Monitorinqin həyata keçirilməsindən məqsəd «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» 12 dekabr 2003-cü il tarixli Qanunun qəbulundan sonrakı dövrdə qeyri-hökumət təşkilalarının qeydiyyatı sahəsindəki vəziyyəti öyrənməkdən ibarət olub. Monitorinq aşağıdakı qaydada aparılıb:

Ölkənin bir sıra kütləvi informasiya vasitələrində layihə barədə xüsusi elanlar verilib. Elanlarda Ədliyyə Nazirliyinə müraciət edən və qeydiyyatdan imtina cavabı alan QHT-lərin təsis sənədlərinin və nazirliyin cavab məktublarının ATƏT-in Bakı ofisinə təqdim olunması bildirilib. Bu elanla bağlı müraciət edən QHT-lərin sənədlərinin və qeydiyyt orqanının cavablarının hüquqiliyinin ekspertizası aparılıb.

Layihənin icarsına 15.06.2004-cü il tarixdə başlanmış və 15.12.2004-cü il tarixdə başa çatmışdır. Layihənin həyata keçirildiyi müddətdə ümumilikdə 22 qeyri-hökumət təşkilatının sənədlərinin ekspertizası aparılıb. Bu təşkilatlar aşağıdakılardır:

1. İnsan Hüquqları üzrə Hüquqşünaslar Komitəsi ictimai birliyi
2. "Demokratik İslahatlar Uğrunda Mərkəzi ictimai birliyi
3. «Xınalıq Mədəniyyət Mərkəzi» ictimai birliyi
4. Nəqliyyatçıların Müstəqil Həmkarlır İttifaqı Respublika Birliyi
5. «Bizim şəhər» Sumqayıt sosial-inkişaf ictimai birliyi
6. «Azad Cəmiyyət Uğrunda» ictimai birliyi
7. «Ehtiyatda və İstefada Olan Zabitlər İttifaqı» ictimai birliyi
8. «Demokratik Maarifçilik Mərkəzi» ictimai birliyi
9. «Mərkəzi və Asiya Ölkələrinin Tədqiqatı və İnkişafı» beynəlxalq humanitar təşkilatının nümayəndəliyi
10. «Demokratik İnkişaf» Regional ictimai birliyi
11. «Söz azadlığı» İnsan Hüquqlarının müdafiəsi İctimai Birliyi
12. «İqtisadçı Jurnalistlər» İctimai Birliyi
13. «Etimad və Qayğı» Xeyriyyə İctimai Birliyi

14. Vətəndaşların Konstitusiya Hüquqlarının Təminatına Yardım İctimai Birliyi
15. «Finanse» Şəffaf Büdcə İctimai Birliyi
16. «QAYĞI» İctimai Birliyi
17. «Hüquqi yardım» İctimai Birliyi
18. «Media Hüququ İnstitutu» İctimai Birliyi
19. «Sakinlərin Ərazi üzrə Sosial İqtisadi Hüquqlarının Müdafiəsi» İctimai Birliyi
20. «Cənub regionun sosial və iqtisadi inkişafı» İctimai Birliyi
21. Strateji Təhqiqatlar Mərkəzi İctimai Birliyi
22. «Azərbaycan naminə Hərəkat» İctimai Birliyi

## II. QISA XÜLASƏ

Ekspertizası aparılmış təşkilatların sənədlərinin təhlili olunması göstərir ki, həmin qeyri-hökumət təşkilatları tərəfindən Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsinə təqdim olunan sənədlər ümumən qanunvericiliyin tələblərinə uyğun hazırlanmışdır. Belə ki, bu təşkilatların təsis sənədləri qanunla nəzərdə tutulan müddətdə (təsis iclasından sonra 1 ay müddətində) verlmişdir. Təsisçilərin müraciət ərizəsi və ona əlavə edilən sənədlərin dairəsi ümumən qanunvericiliyin tələblərinə uyğun aparılmışdır.

Qeydiyyat orqanı tərəfindən verilən cavabların araşdırılması isə belə bir qənaətə gəlməyə imkan verir ki, bütün cavablar mahiyyət etibarı ilə, demək olar ki, eyni xarakterlidir. Yəni verilən cavablardan belə məlum olur ki, presedent halını almış eyni hallar təkrar olunur. Belə ki, qeydiyyat üçün təqdim olunan sənədlər qanunla müəyyən olunmuş ilk 30 günlük müddətində araşdırılır, sonra müddət heç bir əsas göstərilmədən daha 30 gün uzadılır. Halbuki, qanunun tələblərinə görə «müstəsna hallarda yoxlama zamanı əlavə araşdırma aparılması yarandıqda» müddət uzadıla bilər (Qanunun 8.2-ci maddəsi).

Bundan sonra isə, qeydiyyat orqanı tərəfindən bir və ya bir neçə kiçik çatışmazlıq əsas gətirilərək təşkilatın qeydiyyatından imtna edilir. Halbuki, həmin çatışmazlıqların aşkar edilməsi yoxlamanın ilikin mərhələsində də (əvvəlki 30 gün müddətində) mümkün idi.

Bundan sonrakı mərhələdə göstərilən çatışmazlıqlar təsisçilər tərəfindən aradan qaldırılır və sənədlər yenidən qeydiyyat orqanına təqdim olunur. Sonrakı proseslərdə eyni hallar yuxarıda göstərilən qaydada təkrar olunur və belə bir vəziyyət aylarla davam edir.

Bütün bunlar isə belə bir qərara gəlməyə imkan verir ki, qeydiyyat orqanı tərəfindən verilən cavablar əslində bu təşkilatların qeydə alınmasından müxtəlif bəhanələrlə yayınmaqdır. Nəticə etibarı ilə qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı problem olaraq qalır. Təhlil olunan sənədlərin demək olar ki, hamısı üçün bu vəziyyət xarakterik olub.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, bir sıra qeyri-hökumət təşkilatlarının sənədlərindəki bəzi çatışmazlıqlarla bağlı qeydiyyat orqanı tərəfindən göstərilən iradların da müəyyən qanuni əsasları vardır.

Həmin QHT – lərə Nəqliytçıların Müstəqil Həmkarlar İttifaqı Respublika Birliyinin, «Azad Cəmiyyət Uğrunda» ictimai birliyinin, «Mərkəzi və Asiya Ölkələrinin Tədqiqatı və İnişafı» beynəlxalq humanitar təşkilatının, «Etimad və Qayğı» Xeyriyyə İctimai Birliyinin, Strateji Təzqiqatlar Mərkəzi İctimai Birliyinin və «Sakinlərin Ərazi üzrə Sosial İqtisadi Hüquqlarının Müdafiəsi» İctimai Birliyinin sənədlərini aid etmək olar. Lakin hesab edirik ki, bu təşkilatların sənədlərindəki bəzi çatışmazlıqlar da qeydiyyatdan imtina üçün əsas olmamalıdır, çünki bu çatışmazlıqların aradan qaldırılması mümkündür və qanunvericilik buna görə təşkilatın qeydə alınmaması üçün əsas hesab etmir (Qanunun 8.2 - ci maddəsi), çünki qanunvericilik aradan qaldırılması mümkün olan çatışmazlıqları qeydiyyatdan imtina üçün əsas hesab etmir (Qanunun 8.3-cü maddəsi).

## III. ÜMUMİ QİYMƏTLƏNDİRMƏ VƏ TÖVSİYYƏLƏR:

Ümumilikdə ekspertiznın nəticələri belə bir ümumi rəyə gəlməyə imkan verir ki, «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» yeni qanunun qüvvəyə minməsindən sonra qeyri-hökumət təşkilatlarının qeydə alınmasında müsbət istiqamətdə ciddi dəyişikliklər baş verməmişdir. Yəni yeni qanunun qəbulundan sonra da qeyri-hökumət təşkilatlarının qeydiyyatı sahəsində mövcud problemlər, demək olar ki, qalmaqdadır. Bu problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- qanunvericiliyin tətbiqi, məmur bürokratiyası ilə bağlı problemlər;
- mövcud hüquqi bazadan irəli gələn problemlər.

Belə hesab edirik ki, qeyri-hökumət təşkilatlarının qeydiyyatı yalnız mərkəzi qeydiyyat idarəsində deyil, həm də Hüquqi Şəxslərin Dövlət Qeydiyatı İdarəsinin bölgə şöbələrində də aparılmalıdır. Məsələn, «Cənub regionun sosial və iqtisadi inkişafı» İctimai Birliyi, «Hüquqi yardım» İctimai Birliyi, Vətəndaşların Konstitusiya Hüquqlarının Təminatına Yardım İctimai Birliyi, «Finanse» Şaffaf Büdcə İctimai Birliyi və digər ictimai birliklər Azərbaycanın müxtəlif regionlarından Ədliyyə Nazirliyinin Bakıda yerləşən mərkəzi orqanına müraciət etmək zəruriyyəti qarşısında qalmışlar.

Bununla yanaşı qeydiyyat orqanı tərəfindən sənədlər qəbul olunarkən onun ilkin yoxlamalarının aparılması zəruridir. Burada hansı sənədin çatışmadığı, sənədlərin rəsmiləşdirilməsindəki hər hansı kiçik qüsurlar aşkar edilməli və bu barədə ərizəçiyə dərhal məlumat verilməlidir. Bundan başqa qeydiyyat proseduru xeyli sadələşdirilməli dövlət reyestri üçün zəruri olmayan sənədlərin dairəsi azaldılmalıdır.

Burada qanunvericiliyin tətbiqi və məmur bürokratiyası sahəsindəki problemlərə qeydiyyat prosedurunu tənzimləyən normaların birmənalı və qanunun mahiyyətinə uyğun tətbiq edilməməsi (normanın tələblərinin heç də həmişə düzgün şərh olunmaması), müddətlərin qanuni əsas olmadan uzadılması, subyektiv mülahizələr, QHT-lərin qeydiyyatı prosedurunun hədsiz çətinləşdirilməsi və bu qurumların qeydiyyatının mərkəzləşdirilməsi və s. kimi halları aid etmək olar.

Monitorinq zamanı aşkar olunmuş problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İmtinaya əsas olmayan əsaslara görə qeydiyyatdan imtina;
2. Ədliyyə Nazirliyi tərəfindən qeydiyyatın aparılması müddətlərinə riayət etməməsi;
3. Heç bir əsas göstərmədən sənədlərin yoxlanılması müddətinin daha 30 günə qədər artırılması;
4. QHT-in qeydiyyatının Ədliyyə Nazirliyinin Bakıda yerləşən mərkəzi orqanı tərəfindən aparılması.

Mövcud hüquqi bazadan irəli gələ problemlər isə, bu sahəni tənzimləyən normativ-hüquqi aktlarda, xüsusən də «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» bir sıra müddəaların dəqiq və konkret xarakter daşımaması ilə bağlıdır. Hesab edirik ki, bu problemlərin aradan qaldırlması üçün qanunvericilikdə bir sıra təkmilləşdirmələr aparılmalıdır.

## IV. TÖVSİYYƏLƏR

Ekspert tərəfindən verilən tövsiyyələr:

1. Qeyri-hökumət təşkilatlarının qeydiyyatı yalnız mərkəzi qeydiyyat idarəsində deyil, həm də Hüquqi Şəxslərin Dövlət Qeydiyatı İdarəsinin bölgə şöbələrində də aparılmalıdır.

2. Qeydiyyat proseduru xeyli sadələşdirilməli dövlət qeydiyyatı üçün təqdim edimәli olan sənədlərin sayı azaldılmalıdır.

3. Qeydiyyat orqanı ərizəçiyə çatışmayan sənədləri təqdim etmək və qeydiyyat sənədlərində nöqsanları düzəltmək üçün imkan təmin etməli və təqdim edilən sənədləri ilkin baxışdan kerçirməlidir.

4. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanununda aşağdaki dəyişikliklər edilməsi tövsiyyə edilir:

a. Qanunda qeydiyyat üçün təqdim olunan sənədlərdə hansı halların aradan qaldırılması mümkün olan çatışmazlıqlar, hansı halların isə qeydiyyatdan imtina üçün əsas hesab olunması dəqiq və aydın müəyyən olunmalıdır. Yəni çatışmazlıq hesab edilən hallların dairəsi ayrıca, qeydiyyatdan imtina üçün əsas hesab edilən halların dairəsi isə ayrıca verilməlidir. Belə bir təkmilləşdirmə qeydiyyat orqanına imkan verməz ki, aradan qaldırılması mümkün olan çatışmazlıqları qeydiyyatdan imtina üçün əsas hesab etsin.

b. Qeydiyyat üçün müəyyən edilmiş müddətlər xeyli azaldılmalıdır. Belə ki, sənədlərin yoxlanması üçün ilkin müddət 30 gün müəyyən olunursa, onda əlavə yoxlama üçün müddətin yenə də 30 gün deyil, 15 gün uzadılması daha məntiqi görünür. Hesab edirik ki, bu təklif qeydiyyat orqanı tərəfindən formal cavabların verilməsi və müddətlərin zərurət olmadan uzadılmasının qarşısını alar. Bundan əlavə sənədlərdəki çatışmazlıqların aradan qaldırlması üçün təyin edilən müddətin 20 gün deyil, 10 gün müəyyən edilməsi məqsədəuyğundur, çünki çatışmahzlığın aradan qaldırılması üçün 10 gün müddəti yetərlidir.Bütün bunlarla yanaşı Qanunda qeydiyyat üçün müddətlər hesablanarkən qeyri iş günlərinin hesablanmamasının da ciddi əsası yoxdur, çünki digər qanunlardan fərqli olaraq yalnız bu Qanunda qeyri-iş günlərinin hesablanmaması hüquqi məntiqə uyğun olmayaraq müddətlərin bürokratik uzadılmasına gətirib çıxarır.

c. Bu Qanunda sənədlərin əlavə araşdırılması üçün müddətin uzadılmasına səbəb olan müstəsna halın nədən ibarət olması aydınlaşdırılmır. Bu da qeydiyyat orqanına imkan verir ki, qanunun həmin müddəasına əsaslanaraq hər dəfə müddəti əlavə olaraq artırsın. Bu baxımdan hesab edirik ki, qanunda müstəsna halların nədən ibarət olması aydın və konret göstərilməlidir.

5. Ədliyyə Nazirliyi qeyri-hökümət təşkilatlarının qeydiyyatına dair tələbləri asan anlaşılan dildə təsvir və izah edən kitabça hazırlıya bilər.

## V. EKSPERTİZASI APARILMIŞ TƏŞKİLATLAR ÜZRƏ QİYMƏTLƏDİRMƏ

### 1. İNSAN HÜQUQLARI ÜZRƏ HÜQUQŞÜNASLAR KOMİTƏSİ

İnsan Hüquqları Üzrə Hüquqşünaslar Komitəsi ictimai birliyi 25 dekabr 2002-ci il tarixdə təsis edilib və 24 yanvar 2003-cü il tarixdə təsis sənədləri dövlət qeydiyyatı üçün Ədliyyə Nazirliyinə təqdim edilib. 29 avqust 2003-cü il tarixdə Nazirliyin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən sənədlər geri qaytarılıb və buna səbəb kimi Nizamnamədə üzvlükdən çıxmanın şərtlərinin göstərilməməsi əsas gətirilib.

Həmin iradla bağlı Nizamnaməyə dəyişikliklər edilib və sənədlər 24 oktyabr 2003-cü il tarixdə yenidən qeydiyyat orqanına müraciət edilib. 21 fevral 2004-cü il tarixdə sənədlər yenidən geri qaytarılıb və əsas kimi Nirzamnamədə təşkilatın fəaliyyət ərazisinin göstərilməməsi bildirilib. 12 mart 2004-cü il tarixdə bu irad da aradan qaldırılıb və sənədlər yenidən qeydiyyat orqanına təqdim edilib.

Qeydiyyat orqanı tərəfindən 03 may 2004-cü il tarixdə verilən cavabla təşkilatın qeyddiyat sənədlərinə baxılma müddəti əlavə olaraq 30 gün müddətinə artırılıb. Nazirliyin Hüquqi şəxslərin dövlət qeydiyyatı orqanı tərəfindən verilən 11 iyun 2004-cü il tarixli cavab məktubu ilə isə təşkilatların təsis sənədləri dövlət qeydiyyatına alınmadan növbəti dəfə geri qaytarılmıb. Əsas kimi Nizamnamədə maliyyə ilə ilə bağlı müddəaların göstərilməməsi göstərilib.

Dövlət qeydiyyatına alınması üçün müraciət edən İnsan Hüquqları Üzrə Hüquqşünaslar Komitəsi ictimai birliyinin təsis sənədləri və qeydiyyat orqanı tərəfindən verilən cavabların ekspertizası onların qanunauyğunluğu ilə bağlı aqşağıdakı nəticələrə gəlməyə əsaslar yaradıb:

İnsan Hüquqları Üzrə Hüquqşünaslar Komitəsi ictimai birliyinin təsis sənədləri hüquqi şəxslərin dövlət qeydiyyatı ilə bağlı 2004-cü ilədək qüvvədə olmuş və hazırda qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun hazırlanıb. Təşkilatın dövlət qeydiyyatı üçün

təqdim edilmiş Nizamnaməsi və digər təsis sənədləri hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında qanunvericilklə müəyyən olunmuş tələblərə cavab verir.

Ədliyyə Nazirliyinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən həm sənədlərin araşdırılması ilə bağlı müddətin uzadılması, həm də təsis sənədlərinin icra olunmadan geri qaytarılması ilə bağlı verdiyi cavablar qanunvericiliyin tələblərinə uyğun deyildir, çünki təşkilatın təsis sənədlərinin baxılması üçün müddətlərin bir neçə dəfə 30 gün müddətində artırılması, sənədlərdəki çatışmazlıqların eyni vaxtda deyil, müxtəlif vaxtlarda aşkar edilməsi, sənədlərin geri qaytarılması üçün gətirilən səbəblərin imtina üçün əsas verməməsi kimi cavablar sırf hüquqi əsaslara söykənmir.

Bütün bunlar isə «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 8-ci və 11-ci maddələri, «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Qanunun 17-ci maddəsi və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 48.2-ci maddələrinin tələbləri ilə ziddiyət təşkil edir.

## 2. DEMOKRATİK İSLAHATLAR MƏRKƏZİ İCTİMAİ BİRLİYİ

Demokratik İslahatlar Mərkəzi ictima birliyinin təsis sənədləri dövlət qeydiyyatına alınması üçün 17 fevral 2004-cü il tarixdə Ədliyyə nazirliyinə təqdim edilib. Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 15.04.2004-cü il tarixdə təşkilata məktub göndərilərək sənədlərə baxılması müddətinin 30 gün müddətində artırıldığı bildirilib.

Qeydiyyat orqanı tərəfindən 21.05.2004-cü il tarixli göndərilən ikinci məktubla isə, təşkilatın yardılması haqqında qərarın və Nizamnamənin təsisçilər tərəfindən imzalanmaması səbəbindən sənədlər geri qaytarılıb. Bu iradlar aradan qaldırılmış və sənədlər 04.06.2004-cü il tarixdə yenidən qeydiyyat orqanına təqdim edilib. Lakin qeydiyyat orqanının göndərdiyi 15.07.2004-cü il tarixli məktubla sənədlərə baxılması müddəti yenidən 30 gün artırıldığı bildirilir.

Demokratik İslahatlar Mərkəzi ictima birliyinin təsis sənədləri və Ədliyyə nazirliyinin cavab məktublarının qanunauyğunluğunun ekspertizsı aşağıdakı nəticələrə gəlməyə əsaslar yardıb:

Demokratik İslahatlar Mərkəzi ictimai birliyinə Ədliyyə nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərfindən verilmiş cavab məktublarında gətirilmiş əsaslardan yalnız təşkilatın yaradılması haqqında qərarın təsisçilərin hamısı tərəfindən imzalanmaması qanunvericiliyn tələblərinə uyğundur. Qeydiyyat orqanı tərəfindən nizamnamənin təsisçilər tərəfindən imzalnmaması iradının isə qanuni əsası yoxdur, çünki qanunvericilik belə bir tələb irəli sürmür. Bundan əlavə iradların aradan qaldırılmasından sonra təsis sənədlərinə baxılması müddətinin növbəti dəfə 30 gün artırılması da qanuni əsaslara söykənmir, çünki artıq həmin təşkilatın təsis sənədlərinin baxılması üçün müddət bir dəfə 30 gün müddətinə artırılmışdır.

## 3. «XINALIQ MƏDƏNİYYƏT MƏRKƏZİ»İCTİMAİ BİRLİYİ

Xınalıq Mədəniyyət Mərkəzi 28.02.2001-ci il tarixdə yaradılıb. Təşkilatın təsis sənədləri dövlət qeydiyyatına alınmaq üçün Ədliyyə nazirliyinə təqdim edilib. Lakin bir sıra iradlar göstərilərək sənədlər geri qaytarılıb.

19 may 2004-cü il tarixdə təşkilatın təsis sənədlərində müəyyən düzəlişlər edilərək yenidən qeydiyyat orqanına təqdim edilib. Ədliyyə Nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyatı idarəsi tərəfindən 06.07.2004-cü il tarixli məktubla təsis sənədləri icra olunmadan geri qaytarılıb. Buna səbəb kimi bu ictimai birliyin 28.02.2001-ci il tarixli təsis iclasının protokolunun əlavə olunmaması və birliyin ali idarəetmə orqanının düzgün göstərilməməsi əsas gətirilib.

02.08.2004-cü il tarixdə göstərilən iradlar aradan qaldırılıb və təsis sənədləri 3-cü dəfə qeydiyyat orqanına təqdim edilib.

Xınalıq Mədəniyyət Mərkəzinin təsis sənədlərinin və Ədliyyə nazirliyinin cavab məktubunun qanunauyğunluğunun ekspertizası aşağıdakı nəticələrə gəlməyə imkan verir:

«Xınalıq Mədəniyyət Mərkəzi» İctimai Birliyinin qeydiyyat orqanına 19 may 2004-cü il tarixli ikinci müraciətində təşkilatın təsis yığıncağının protokolunun da əlavə olunması

tələbi qanunauyğundur. Lakin bu hal imtinaya səbəb olmayan çatışmazlıq hesab olunmalıdır, çünki təşkilatın ilkin müraciətində nazirliyə təqdim edilib.

Ədliyyə nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən təsis sənədlərindəki çatışmazlıqların eyni vaxtda deyil, müxtəlif vaxtlarda aşkar edilməsi isə hüquqi əsaslara söykənmir. Belə ki, «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 8.3 – cü maddəsində göstərilir ki, imtinaya səbəb olmayan bütün çatışmazlıqlar eyni vaxtda aşkar edilməli və onun aradan qaldırıası üçün müraciət edənə təqdim edilməlidir.

## 4. NƏQLDİYYATÇILARIN MÜSTƏQİL HƏMKARLAR İTTİFAQI RESPUBLİKA BİRLİYİ

Nəqliyyatçıların Müstəqil Həmkarlar İttifaqı Respublika Birliyi 05.01.2002-ci il tarixdə təsis edilib. Təşkilatın təsis sənədləri dövlət qeydiyyatına alınmaq üçün 29.01.2002-ci il tarixdə Ədliyyə nazirliyinə təqdim edilib. 28.05.2002-ci il tarixdə dövlət rüsumunun ödənilməməsi səbəbindən sənədlər geri qaytarılıb.

Bu çatışmazlıq aradan qaldırılıb və təsis sənədləri 27.06.2002-ci il tarixdə yenidən qeydiyyat orqanına təqdim edilib. 15.10.2002-ci tarixdə təsis sənədləri müəyyən iradlarla geri qaytarılıb. Təşkilatın nizamnaməsinə əlavə və dəyişikliklər edilərək 22.04.2003-cü il tarixdə 3-cü dəfə Ədliyyə nazirliyinə təqdim edilib. Eyni zamanda qeydə almadan yayınma ilə bağlı məhkəmədə iddia qaldırılıb.

11.02.2004-cü il tarixdə təsis sənədləri yenidən icra olunmadan geri qaytarılır və 16.02.2004-cü il tarixdə məhkəmənin tövsiyyəsi ilə sənədlər 4-cü dəfə qeydiyyat orqanına təqdim olunur. Ədliyyə nazirliyinin qeydiyat idarəsi tərəfindən göndərilən 19.04.2004-cü il tarixli məktubla sənədlərin yoxlanılması üçün müddət daha 30 gün artırılır. Qeydiyat orqanının 19.05.2004-cü il tarixli cavab məktubu ilə isə təsis sənədləri icra olunmadan geri qaytarılır.

Nəqliyatçıların Müstəqil Həmkarlar İttifaqı Respublika Birliyinin təsis sənədlərinin və Ədliyyə nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin cavab məktublarının qanunauyğuluğunun ekspertizası aşağıdakı nəticələrə gəlməyə imkan verir:

Nəqliyyatçıların Müstəqil Həmkarlar İttifaqı Respublika Birliyinin təsis sənədləri bir istisna ilə qanunvericiliyin tələblərinə uyğun hazırlanıb. Belə ki, Qeydiyyat orqanının 19.05.2004-cü il tarixli məktubunda təşkilatın təsis sənədlərinin icra olunmadan geri qaytarılması üçün əsas gətirilən «təşkilatın yaradılması qaydalarının «Həmkarlar İttifaqları haqqında» Qanun tələblərinə əməl edilməməsi» cavabı ümumən qanunun tələbinə uyğundur. Təşkilatın yalnız bir neçə fiziki şəxs tərəfindən təsis olunması və onun yaradılması prinsiplərinin Qanunun tələblərinə müəyyən qədər cavab verməməsi belə bir cavabın qanuniliynə əsas yaradır.

Ədliyyə nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən sənədlərin icra olunmadan geri qaytarılması üçün əsas gətirilən digər hallar isə, əslində qeydiyyatdan imtinaya səbəb olmayan hallar kimi qiymətləndirilməlidir. Bu hallar «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 8-ci maddəsində müəyyən olunmuş qaydada eyni vaxtda müəyyən edilməli və ərizəçiyə bildirilməli idi.

Qeydiyyat orqanı tərəfindən təsis sənədlərinin dəfələrlə geri qaytarılması və əlavə araşdırmalar üçün əsas olmadan müddətin daha 30 gün uzadılması və s. kimi hallar Qanunun həmin maddəsinin pozulması deməkdir.

## 5. «BİZİM ŞƏHƏR» SUMQAYIT SOSİAL İNKİŞAF İCTİMAİ BİRLİYİ

«Bizim şəhər» Sumqayıt sosial-inkişaf mərkəzi ictimai birliyi 24 iyul 2001-ci il trixdə təsis edilib və təşkilatın təsis sənədləri 01 avqust 2001-ci il tarixdə Ədliyyə nazirliyinə təqdim edilib. Lakin heç bir cvab alınmayıb və 20 sentyabr 2002-ci il tarixdə bu təsisçilərdən biri və və təşkiltın direktoru M. Zeynalova Nazirliyə məktubla müraciət edib. Bu müraciətə cavab almadıqdan sonra Azərbaycan Respublikasının prezidentinə müraciət edib.

Bundan sonra müxtəlif vaxtlarda qeydiyyat orqnı tərəfindən verilən cavablarda təkar-təkrar əlavə araşdırma aparılması üçün sənədlərə baxılma müddəti gah uzadılmış, gah da sənədlər icra olunmadan geri qaytarılmışdır.

«Bizim şəhər» Sumqayıt sosial-inkişaf mərkəzi ictimai birliyinin təsis sənədlərinin və Ədliyyə nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin cavab məktublarının qanunauyğunluğunun ekspertizası aşağıdakı nəticələrə gəlməyə imkan verir:

«Bizim şəhər» Sumqayıt sosial-inkişaf mərkəzi ictimai birliyinin ekspertiza üçün təqdim etdiyi sənədlər ümumən qanunun tələblərinə uyğundur.

Ədliyyə Nazirliyi hüquqi şəxslərin dövlət qeydiyatı idarəsi tərəfindən sənədlərə baxılması müddətinin bir neçə dəfə uzadılması «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun tələblərinə uyğun deyildir. Belə ki, Qanunun 8.2-ci maddəsində əlavə araşdırılmaların aparılması üçün müddətin uzadılmasına yalnız müstəsna hallarda yol verilir.

Qeydiyyat orqanının cavab məktublarında isə müddətlərin uzadılması üçün müstəsna halların nədən ibarət olması göstərilmir. Digər tərəfdən  eyni sənədlərin yoxlanması üçün əlavə araşdırmaların aparılması zərurəti kimi müddətlərin  hər dəfə artırılmaıs qanunun tələblərinə ziddir.

Bunlardan əlavə qeydiyyat orqanı tərəfindən təqdim edilmiş sənədlərdəki çatışmazlıqları eyni vaxtda deyil, müxtəlif vaxtlarda aşkar etməsi Qanunun 8.3-cü maddəsinin tələblərinə uyğun deyildir.

## 6. «AZAD CƏMİYYƏT UĞRUNDA» İCTİMAİ BİRLİYİ

«Azad cəmiyyət uğrunda» ictimai birliyi 04 fevral 2004-cü il tarixdə təsis edilib və təşkilatın sənədləri dövlət qeydiyyatın alınması üçün10 fevral 2004-cü il tarixdə Ədliyyə nazirliyinə təqdim edilib.

Ədliyyə nazirliyi hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən verilən 06.04.2004-cü il tarixli cavab məktubu ilə əlavə araşdırmaların aparılması üçün sənədlərə baxılma müddəti 30 gün artırılıb.

14.05.2004-cü il tarixdə Təşkilatın sədri K. Məhərrəmov tərəfindən Ədliyyə nazirinə yazılı məktubla müraciət olunaraq əlavə müddətin ötdüyü üçün onlara cavab verilməsi xahiş olunur. Lakin nazirliyin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən verilən 11.05.2004-cü il tarixli cavab məktubundan belə məlum olur ki, təsisçilərə əlavə müddət başa çatmamış, yəni 11.05.2004-cü il tarixdə cavab məktubu göndərilib. Burada göstərilir ki, müraciət ərizəsi bütün təsisçilər tərəfindən imzalanmadığı üçün sənədlər icra olunmadan geri qaytarılır.

«Azad cəmiyyət uğrunda» ictimai birliyinin təsis sənədlərinin və Ədliyyə nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin cavab məktublarının qanunauyğunluğunun ekspertizası aşağıdakı nəticələrə gəlməyə imkan verir:

«Azad cəmiyyət uğrunda» ictimai birliyinin dövlət qeydiyyatı üçün təqdim etdiyi sənədlərdən yalnız ərizənin notariat qaydasında təsdiq edilməməsi istisna olmaqla qalan sənədlər qanunun tələblərinə uyğundur.

Qeydiyyat orqanı tərəfindən verilən cavab məktublarında yalnız müraciət ərizəsinin notariat qaydasında təsdiq edilməsi tələbi qanunauyğundur. Lakin belə hesab edirik ki, ərizənin notariat qaydasında təsdiq edilməməsi qeydiyyatdan imtinaya əsas kimi deyil, aradan qaldırılıması mümkün olan çatışmazlıq kimi qiymətləndirilməli idi. Burada ərizənin notarial qaydada təsdiq edilməməsi halının müraciətin olunduğu vaxtdan xeyli müddət ötdükdən sonra müəyyən edilməsi də normal məntiqə sığmır.

Eyni zamanda əlavə araşdırmalar üçün əsas olan müstəsna halın nədən ibarət olması da digər təşkilatlara verilən cavablarda olduğu kimi burada da aydınlaşdırılmır. Müraciət ərizəsinin bütün təsisçilər tərəfindən imzalanmamasını qeydiyyatdan imtinaya əsas kimi göstərilməsi isə ümumiyyətlə qanunauyğun deyildir, çünki müraciət ərizəsi təsisçilərin səlahiyyətli nümayəndəsi (onun vəkalətnaməsi ərizəyə əlavə edilib) tərəfindən imzalanıb və bu «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 5-ci maddəsinin tələblərinə tam uyğundur.

## 7. «EHTİYATDA VƏ İSTEFADA OLAN ZABİTLƏR İTTİFAQI» İCTİMAİ BİRLİYİ

«Ehtiyatda və istefada olan zabitlər ittifaqı» ictimai birliyi 15.06.2003-cü il tarixdə təsis edilib və təsis sənədləri 26.06.2003-cü il tarixdə Ədliyyə nazirliyinə təqdim edilib. Qeydiyyat orqanı tərəfindən 18.02.2004-cü il tarixli məktubla təşkiltın sənədləri icra olunmadan geri qaytarılıb. Buna səbəb kimi nizamnamədə ictima birliyin üzvlüyünə xitam verilməsindən məhkəməyə şikayət etmə hüququna təminat verilməməsi, qeydiyyata verilən faktların və saxlanmağa verilən sənədlərin düzgünlüyünün təsdiq edilməməsi və təsis yığıncağı protokolunun imzalanmaması əsas gətirilib.

Təsisçilər tərəfindən göstərilən iradlar aradan qaldırıldıqdan sonra 30.04.2004-cü il tarixdə sənədlər yenidən qeydiyyat orqnına təqdim edilib. Qeydiyyat orqanının 28.06.2004-cü il tarixli məktubu ilə əlavə araşdırmaların aparılması üçün müddət daha 30 gün artırılıb.

ictimai birliyinin təsis sənədlərinin və Ədliyyə nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin cavab məktublarının qanunauyğunluğunun ekspertizası aşağıdakı nəticələrə gəlməyə imkan verir:

Qeydiyyat orqanının 18.02.2004-cü il tarixli məktubunda sənədlərin icra olumamasına səbəb kimi göstərilən əsaslardan biri – «qeydiyyata verilən faktların və saxlanmağa verilən sənədlərin düzgünlüyünün təsdiq edilməməsi» halından başqa digər hallar qanunauyğundur.

Hesab edirik ki, müraciət ərizəsi və ona qoşulan sənədlərin siyahısının ərizəçi təsisçilər tərəfindən imzalanması bütövlükdə bu sənədlərin düzgünlüyünün təsdiq edilməsidir. Mülki Məcəllənin 131.4-cü maddəsindəki bu tələbin mahiyyəti də məhz bundan ibarətdir və bu, yuxarıda göstərilən ifadənin ərizəyə yazılıb-yazılmaması kimi şərh oluna bilməz.

## 8. «DEMOKRATİK MAARİFÇİLİK MƏRKƏZİ» İCTİMAİ BİRLİYİ

«Demokratik Maarifçilik Mərkəzi» İctimai Birliyi 26 dekabr 2003-cü il tarixdə Cəlilabad şəhərində təsis edilib. 13 yanvar 2004-cü il tarixdə təşkilatın təsis sənədləri dövlət qeydiyyatına alınması üçün Ədliyyə nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinə təqdim edilib. Lakin qeydiyyat orqanı tərəfindən 18.02.2004-cü il tarixli məktubla sənədlər icra olunmadan geri qaytarılıb və buna əsas kimi nizamnamənin və müraciət ərizəsinin bütün təsisçilər tərəfindən imzalanmaması göstərilib.

Bu çatışmazlıqlar aradan qaldırılıb və təsis sənədləri 27.02.2004 – cü il tarixdə yenidən qeydiyyat orqanına təqdim edilib. Ədliyyə nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən verilən 26.04.2004-cü il tarixli cavab məktubu ilə təsis sənədlərinə baxılma müddəti 30 gün artırılıb və 31.05.20044-cü il tarixli məktubla isə təsis sənədləri yenidən icra olunmadan geri qaytarılıb. Buna əsas kimi birliyin yaradılması və və nizamnaməsinin təsdiq edilməsi haqqında qərarın bütün təsisçilər tərəfindən imzalanmaması göstərilib.

Göstərilən iradlar aradan qaldırılıb və 18.06.2004-cü il tarixdə sənədlər yenidən qeydiyyat orqanına təqdim edilib. Bundan sonra 02.08.2004-cü il tarixli məktubla Birliyin təsis sənədlərinə baxılma müddəti yenidən daha 30 gün müddətinə artırılıb. Nəhayət qeydiyyat orqanı tərəfindən göndərilən 07.09.2004-cü il tarixli məktubla təsis sənədləri yenidən icra olunmadan geri qaytarılıb. Əsas kimi nizamnamədə birlliyin üzvlüyündən çıxarılmanın şərtlərinin göstərilməməsi bildirilib.

«Demokratik Maarifçilik Mərkəzi» İctimai Birliyinin təsis sənədlərinin və Ədliyyə nazirliyi hüquqi şəxslərin dövlət qeydiyyatı orqanı tərəfindən verilən cavab məktublarının qanunauyğunluğu aparılan ekspertiza aşağıdakı nəticələrə gəlməyə imkan verir:

«Demokratik Maarifçilik Mərkəzi» İctimai Birliyinin təsis sənədləri qanunvericiliyin tələblərinə uyğun hazırlanmışdır.

Ədliyyə Nazirliyi hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən verilən cavablar qanunvericiliyin tələblərinə cavab vermir. Belə hesab edirik ki, qeydiyyat orqanı bu təşkilatı ilkin müraciətdən sonra qeydə almalı idi, çünki ilkin müracitdən sonra

qeydiyyatdan imtina üçün gətirilən hər iki iradın hüquqi əsası yoxdur. Belə ki, qanunvericilik nizamnamənin təsisçilər tərəfindən imzalanması tələbini irəli sürmür, yalnız təsis iclasında təsisçilərin qərarı ilə təsdiq edilməsini nəzərdə tutur.

Hesab edirik ki, ərizənin bütün təsisçilər tərəfindən imzalanmaması iradının da hüquqi əsası yoxdur, çünki ərizə müvafiq vəkalətnamə əsasında təsisçilərin səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilib və belə bir qaydanı qanunvericilik nəzərdə tutur.

Ümumilikdə isə belə cavabların verilməsi təşkilatın qeydə alınmasından əsassız olaraq yayınma kimi qiymətləndirilməlidir.

## 9. «MƏRKƏZİ VƏ ASİYA ÖLKƏLƏRİNİN TƏDQİQATI VƏİNKİŞAFI» BEYNƏLXALQ HUMAİTAR TƏŞKİLATI

«Mərkəzi və Asiya Ölkələrinin Tədqiqatı və İnkişafı» beynlaxalq humanitar təşkilatı 23 mart 2001-ci il tarixdə Böyük Britaniyada qeydiyyatdan keçib və 10 iyul 2001-ci il tarixdə Azərbaycan Respublikasının Gəncə şəhərində nümayəndəliyinin açılması haqqında qərar qəbul edib.

Nümayəndəliyin dövlət qeydiyyatına alınması ilə bağlı Ədliyyə Nazirliyininin hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinə müraciət olunub. Lakin qeydiyyat orqanı tərəfindən 13 mart 2002-ci il tarixli cavab məktubu ilə sənədlər icra olunmadan geri qaytarılıb. Əsas kimi xarici ölkələrin hümanitar təşkilatlatlarının dövlət qeydiyyatı üçün tələb olunan Nazirlər Kabinetinin razılıq verməsi haqqında sənədin təqdim edilməsməsi göstərirlib.

Bundan sonra həmin sənəd əlavə olunmaqla təsis sənədləri yenidən qeydiyyat orqanına müraciət olunub. Qeydiyat orqanı tərəfindən göndərilən 20.02.2004-cü il tarixli cavab məktubu ilə isə sənədlər yenidən icra olunmadan geri qaytarılmışdır və səbəb kimi baş təşkilatın nizamnaməsinin təqdim edilməməsi və dövlət rüsumunun ödənilməməsi göstərilib.

Bundan sonra sənədlərə baxılma müddəti 30 gün müddətinədək artırılıb və bundan sonra 21.06.2004-cü il tarixli məktubla yenə də bir sıra iradlar göstərilərək qeydə almadan imtina olunub.

«Mərkəzi və Asiya Ölkələrinin Tədqiqatı və İnkişafı»beynlaxalq humanitar təşkilatının nümayəndəliyinin qeydiyyat üçün təqdim edilən sənədləri və Ədliyyə nazirliyi hüquqi şəxslərin dövlət qeydiyyatı orqanı tərəfindən verilən cavab məktublarının qanunauyğunluğu aparılan ekspertiza aşağıdakı nəticələrə gəlməyə imkan verir:

«Mərkəzi və Asiya Ölkələrinin Tədqiqatı və İnkişafı» beynlaxalq humanitar təşkilatının nümayəndəliyinin dövlət qeydiyyatından imtina üçün gətirilən bir sıra iradlar (baş təşkilatın nizamnaməsinin və Nazirlər Kabinetindən razılıq sənədinin təqdim olunması tələbləri) qanunvericiliyin tələblərinə uyğundur. Lakin qeydiyyat orqanı tərəfindən təqdim edilmiş sənədlərdəki çatışmazlıqları eyni vaxtda deyil, müxtəlif vaxtlarda aşkar etməsi «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 8.3-cü maddəsinin tələblərinə ziddir.

Bundan başqa müstəsna hal kimi müddətin 30 gün müddətinə uzadılmasının da ciddi hüquqi əsaslara söykənmir.. Belə ki, əgər müddətin uzadılmasına ehiyac var idisə, onda müddətin ilkin müraciətdən sonra uzadılması daha məntiqi görünür.

## 10. «DEMOKRATİK İNKİŞAF» REGİONAL İCTİMAİ BİRLİYİ

«Demokratik İnkişaf» Regional ictimai birliyi 20 iyul 2004-cü il tarixdə bir qrup fiziki şəxs tərəfindən Şəki şəhərində təsis edilib. Təşkilatın təsis sənədləri dövlət qeydiyyatına alınmaq üçün 09.08.2004-cü il tarixdə Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsinə təqdim edilib. Qeydiyyat orqanının 17.09.2004-cü il tarixli məktubu ilə sənədlərə baxılma müddəti əlavə yoxlamalar üçün daha 30 gün müddətinə artırılıb.

Qeydiyyat orqanının 05.11.2004-cü il tarixli məktubu ilə isə bu təşkilatın sənədləri icra olunmadan geri qaytarılıb. Buna səbəb kimi qurumun səlahiyyətli nümayəndəsinə

verilmiş vəkalətnamə haqqında məlumatların müraciət ərizəsində göstərilməməsi əsas gətirilib.

Bu təşkilatın təsis sənədləri və qeydiyyat orqanının cavab məktublarının eksperizası aşağıdakı rəyə gəlməyə imkan verir:

«Demokratik İnkişaf» Regional ictimai birliyin təsis sənədləri tamamilə qanunvericiliyin tələblərinə uyğun hazırlanmışdır.

Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsinin bu təşkilatın dövlət qeydiyyatından imtina ilə bağlı gətirdiyi səbəbin – «qurumun səlahiyyətli nümayəndəsinə verilmiş vəkalətnamə haqqında məlumatların müraciət ərizəsində göstərilməməsi»nin qanuni əsası yoxdur, çünki qurumun müraciət ərizəsində səlahiyyətli nümayəndəyə verilmiş vəkalətnamə haqqında məlumatlar göstərilmiş və vəkalətnamə müraciət ərizəsinə qoşulan sənədlər siyahısına daxil edilmişdir.

## 11. «SÖZ AZADLIĞI» İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ İCTİMAİ BİRLİYİ

İctimai Birlik 2003-cü ilin yanvar ayında təsis edilib. İctimai Birlik Ədliyyə Nazirliyinə təqdim etdiyi bütün sənədləri monitorinq üçün təqdim etmədiyindən tam və hərtərəfli rəy vermək mümkün deyil.

Təqdim olunmuş Ədliyyə Nazirliyinin 13 fevral 2004-cü il tarixli 11/359 saylı məktubundan aydın olur ki, nazirlik Azərbaycan Respublikası Mülki Məcəlləsinin 47.1.-ci maddəsinə (təsis sənədlərinin təsdiq edilməməsi) və Ədliyyə Nazirliyinə təqdim edilmiş sənədlərdə uyğunsuzluğun (protokolda təşkilatın adının «İnsan Hüquqlarının müdafiəsi və sosial ədalət uğrunda mübarizə mərkəzi») olmasına əsaslanaraq sənədləri icra olunmadan geri qaytarmışdır.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

Təşkilat tərəfindən monitorinq məqsədləri üçün təqdim olunmuş nizamnamə təsisçilər tərəfindən təsdiq olunmayıb;

Ədliyyə Nazirliyi aşgar etdiyi və dövlət qeydiyyatına alınmasına imtina üçün səbəb olmayan çatışmamazlıqların, yəni təsis sənədlərinin təsdiq edilməməsi və protokolda təşkilatın adının «İnsan Hüquqlarının müdafiəsi və sosial ədalət uğrunda mübarizə mərkəzi» kimi göstərilməsinin aradan qaldırılması üçün əlavə müddət təyin etmədən sənədləri geri qaytarıb.

İctimai Birliyin təsis sənədlərinin Ədliyyə Nazirliyinə təqdim etdiiyi tarix bəlli olmadığından Ədliyyə Nazirliyinin cavab məktubunun «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri Haqqında» Azərbaycan Respublikası Qanununda göstərilən müddətlərdə verilib və ya verilməməsinin aydınlaşdırılması mümkün deyil.

## 12. «İQTİSADÇI CURNALİSTLƏR» İCTİMAİ BİRLİYİ

İctimai Birlik 5 fevral 2004-cü il tarixdə təsis edilib. Təşkilatın sənədləri 9 fevral 2004-cü il tarixdə Ədliyyə Nazirliyinə təqdim edilib. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 24 mart 2004-cü il tarixli, 11/853 saylı məktubuna əsasən İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddəti 30 gün artırılmışdır. Həmin idarənin 29 aprel 2004-cü il tarixli, 11/1235 saylı məktubuna əsasən isə Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır.

Qeyd olunan məktubda sənədlərin geri qaytarılmasının əsası kimi müraciət ərizəsində Mülki Məcəllənin 131.4-cü maddəsinin tələblərinə zidd olaraq qeydiyyata verilən faktların və saxlanmağa verilən sənədlərin düzgünlüyünün təsdiq olunmaması göstərilmişdir.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 24 mart 2004-cü il tarixli, 11/853 saylı məktubunda İctimai Birliyin qeydiyyat

sənədlərinə baxılması müddətinin 30 gün artırılması üçün müstəsna halın nədən ibarət olduğunu izah etməmişdir.

Ədliyyə Nazirliyi aşgar etdiyi dövlət qeydiyyatından imtina üçün səbəb olmayan çatışmamazlıqların, yəni müraciət ərizəsində qeydiyyata verilən faktların və saxlanmağa verilən sənədlərin düzgünlüyünün təsdiq olunmamasının aradan qaldırılması üçün əlavə müddət təyin etmədən sənədləri geri qaytarmışdır.

## 13. «Etimad və Qayğı» Xeyriyyə İctimai Birliyi

İctimai Birlik 2003-cü ilin mart ayında təsis edilib. İctimai Birliyin sənədləri 15 mart 2003-cü il tarixdə Ədliyyə Nazirliyinə təqdim olunub. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 09 dekabr 2003-cü il tarixli, 11/1571 saylı məktubuna əsasən İctimai Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır.

Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi birliyin Nizamnaməsində «Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikası qanununun 25.1-ci maddəsinin tələblərinə zidd olaraq Nəzarət təftiş komissiyasında qərarların qəbulu qaydasının və onun səlahiyyət müddətinin göstərilməməsi və Həmin qanunun 6-cı maddəsinə zidd olaraq Nizamnamədə ictimai birliyin fəaliyyət ərazisinin göstərilməməsi qeyd olunmuşdur.

İctimai Birlik 05 yanvar 2004-cü il tarixdə sənədləri yenidən Ədliyyə Nazirliyinə təqdim etmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 26 fevral 2004-cü il tarixli, 11/700 saylı məktubuna əsasən İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətini 30 gün artırmışdır.

Həmin idarənin 06 aprel 2004-cü il tarixli, 11/957 saylı məktubuna əsasən isə Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır. Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi birliyin Nizamnaməsində «Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikası qanununun 25.1-ci maddəsinin tələblərinə zidd olaraq Nəzarət təftiş komissiyasında qərarların qəbulu qaydasının və

həmin qanunun 10.3-cü maddəsinin tələblərinə zidd olaraq ictimai birliyin üzvlüyünə xitam verilməsindən birliyin daxilində şikayət etmə hüququna təminat verilməməsi qeyd olunmuşdur.

İctimai Birlik 16 aprel 2004-cü il tarixdə sənədləri yenidən, üçüncü dəfə, Ədliyyə Nazirliyinə təqdim etmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 09 iyun 2004-cü il tarixli, 11/1632 saylı məktubuna əsasən İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətini 30 gün artırmışdır.

Həmin idarənin 15 iyul 2004-cü il tarixli, 11/2055 saylı məktubunu əsasən isə Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır. Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 5.3.1-ci maddəsinə zidd oalraq ərizədə təsisçilərin şəxsiyyətini təsdiq edən sənədlərin verilmə tarixinin göstərilməməsi qeyd olunmuşdur.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 8-ci madəsində göstərilən müddətlərə Ədliyyə Nazirliyinin riayyət etməməsi. Məsələn, İctimai birlik Ədliyyə Nazirliyinə ikinci dəfə 05 yanvar 2004-cü il tarixdə müraciət etməsinə baxmayaraq sənədlərin baxılma müddəti barədə qərar 26 fevral 2004-cü il tarixdə qəbul edilmişdir, yəni 30 iş günündən artıq müddət keçdikdən sonra.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 26 fevral 2004-cü il tarixli, 11/700 saylı və 09 iyun 2004-cü il tarixli 11/1632 saylı məktublarında İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətinin 30 gün artırılması üçün müstəsna halın nədən ibarət olduğunun izah edilməmisi;

Ədliyyə Nazirliyi aşgar etdiyi dövlət qeydiyyatından imtina üçün səbəb olmayan çatışmamazlıqların, yəni birliyin təsisçilərinin ərizəsində onların şəxsiyyətini təsdiq edən sənədlərin verilmə tarixinin göstərilməməsinin aradan qaldırılması üçün əlavə müddət təyin etmədən sənədləri geri qaytarması;

İmtinaya səbəb olmayan bütün çatışmamazlıqların eyni vaxtda aşkar edilməməsi. Belə ki, İctimai birlik qeydiyyat üçün 3 dəfə müraciət etməsinə baxmayaraq ona hər dəfə müxtəlif və yeni irad bildirilmişdir. Lakin, «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri Haqqında» Qanunun 8.3 maddəsinə əsasən «…İmtinaya səbə olmayan bütün çatışmamazlıqlar eyni vaxtda aşkar edilməli və aradan qaldırılması üçün müraciət edənə təqdim edilməlidir.»

14. Vətəndaşların Konstitusiya Hüquqlarının Təminatına Yardım İctimai Birliyi

İctimai Birlik 23 oktyabr 2003-cü il tarixdə təsis edilib. İctimai Birliyin sənədləri 03 noyabr 2003-cü il tarixdə Ədliyyə Nazirliyinə təqdim olunub. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 18 fevral 2004-cü il tarixli, 11/572 saylı məktubuna əsasən İctimai Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır.

Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi Mülki Məcəllənin 131.4-cü maddəsinin tələblərinə zidd olaraq müraciət ərizəsinin notariat qaydada təsdiqlənməməsi qeyd olunmuşdur.

İctimai Birlik 05 yanvar 2004-cü il tarixdə sənədləri yenidən Ədliyyə Nazirliyinə təqdim etmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 17 iyun 2004-cü il tarixli, 11/1707a saylı məktubuna əsasən İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddəti 30 gün artırılmışdır.

İctimai Birlik 2004-cü ilin iyul ayında Yasamal Məhkəməsinə iddia ərizəsi ilə müraciət etmişdir.Yasamal rayon məhkəməsinin 17 avqust 2004-cü il tarixli qətnaməsinə əsasən iddia təmin edilməmişdir. Həmin qətnamədə hakim Ədliyyə Nazirliyi NŞDQİ-nin rəis müavininin 11/2267 saylı, 03 avqut 2004-cü il tarixli məktubuna istinad edərək, həmin məktubda «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Qanunun 13.1 maddəsinə zidd olaraq birliyin nizamnaməsində üzvlükdən çıxmanın şərtləri ilə bağlı müddəaların əks olunmamasını və Mülki Məcəllənin 130-cu maddəsinə zidd olaraq birliyin təsis sənədlərində maliyyə ilə bağlı müddəaların göstərilməməsinin qeyd olunduğunu əsas gətirir.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 8-ci maddəsində göstərilən müddətlərə Ədliyyə Nazirliyinin riayyət etməməsi. Məsələn, İctimai birlik Ədliyyə Nazirliyinə ikinci dəfə 22 aprel 2004-cü il tarixdə müraciət etməsinə baxmayaraq sənədlərin baxılma müddəti barədə qərar 17 iyun 2004-cü il tarixdə qəbul edilmişdir, yəni 30 iş günündən artıq müddət keçdikdən sonra.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 17 iyun 2004-cü il tarixli, 11/1707a saylı məktubunda İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətinin 30 gün artırılması üçün müstəsna halın nədən ibarət olduğunun izah edilməmisi;

Ədliyyə Nazirliyi aşgar etdiyi dövlət qeydiyyatından imtina üçün səbəb olmayan çatışmamazlıqların, yəni müraciət ərizəsinin notariat qaydada təsdiqlənməməsinin aradan qaldırılması üçün əlavə müddət təyin etmədən sənədləri geri qaytarması;

İctimai Birliyin qarşılaşdığı digər problem isə, QHT-nin qeydiyyatının Ədliyyə Nazirliyinin, Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə şöbələrinin olmasına baxmayaraq, Bakıda yerləşən mərkəzi orqanında aparılmasıdır.

## 15. «FİNANSE» ŞƏFFAF BÜDCƏ İCTİMAİ BİRLİYİ

İctimai Birlik 28 iyul 2003-cü il tarixdə təsis edilib. İctimai Birliyin sənədləri 12 avqust 2003-cü il tarixdə Ədliyyə Nazirliyinə təqdim olunub. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 19 fevral 2004-cü il tarixli, 11/595 saylı məktubuna əsasən İctimai Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır.

Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi Mülki Məcəllənin 47.1-ci maddəsinin tələblərinə zidd olaraq ictimai birliyin nizamnaməsinin təsisçilər tərəfindən

təsdiq edilməməsi və 131.4-cü maddəsinə əsasən müraciət ərizəsinin notariat qaydada təsdiqlənməməsi qeyd olunmuşdur.

İctimai Birlik 26 mart 2004-cü il tarixdə sənədləri yenidən Ədliyyə Nazirliyinə təqdim etmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 18 may 2004 cü il tarixli, 11/1420 saylı məktubuna əsasən İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddəti 30 gün artırılmışdır. Həmin idarənin 29 iyun 2004-cü il tarixli, 11/1849 saylı məktubunu əsasən isə Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır.

Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi «Qeyri-Hökumət təşkilatları (İctimai birliklər və fondlar) Haqqında» Qanunun 6-cü maddəsinə zidd olaraq Nizamnamədə ictimai birliyin fəaliyyət ərazisinin göstərilməməsi qeyd olunmuşdur.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 8-ci maddəsində göstərilən müddətlərə Ədliyyə Nazirliyinin riayyət etməməsi. Məsələn, İctimai birlik Ədliyyə Nazirliyinə ikinci dəfə 26 mart 2004-cü il tarixdə müraciət etməsinə baxmayaraq sənədlərin baxılma müddəti barədə qərar 18 may 2004-cü il tarixdə qəbul edilmişdir, yəni 30 iş günündən artıq müddət keçdikdən sonra.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 18 may 2004-cü il tarixli, 11/1470 saylı məktubunda İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətinin 30 gün artırılması üçün müstəsna halın nədən ibarət olduğunun izah edilməməsi;

Ədliyyə Nazirliyi aşgar etdiyi dövlət qeydiyyatından imtina üçün səbəb olmayan çatışmamazlıqların, yəni nizamnamənin təsisçilər tərəfindən təsdiq olunmaması və nizamnamədə ictimai birliyin fəaliyyət ərazisinin göstərilməməsinin aradan qaldırılması üçün əlavə müddət təyin etmədən sənədləri geri qaytarması;

İctimai Birliyin üzləşdiyi digər problem isə, QHT-nin qeydiyyatının Ədliyyə Nazirliyinin, Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə şöbələrinin olmasına baxmayaraq, Bakıda yerləşən mərkəzi orqanında aparılmasıdır. İctimai birlik İmişli şəhərində təsis edilmişdir və hüquqi ünvanı da həmin şəhərdə yerləşir.

16. <u>ГАЧГЫН, ЯЛИЛ вя МЯСБУРИ КЮЧКЦНЛЯРЯ «ГАЙЬЫ» ИСТИМАИ БИРЛИЙИ</u>

İctimai Birlik 01 dekabr 2000-ci il tarixdə təsis edilmişdir. 2000-ci ildən başlayaraq təşkilat Ədliyyə Nazirliyinə dəfələrlə müraciət edib. 2004-cü ilin avqust ayınadək təşkilat Ədliyyə Nazirliyinə iki dəfə 04 aprel və 15 iyul 2004-cü il tarixli məktublarla müraciət etmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 04 iyun 2004-cü il tarixli, 11/1591 saylı məktubuna əsasən İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddəti 30 gün artırılmışdır.

24 iyul 2004-cü il tarixli, 11/799 saylı, məktuba əsasən isə sənədlər icra olunmadan geri qaytarılmışdır. Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi birliyin Nizamnaməsinin 4.1. maddəsinin «Qeyri-hökümət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Qanunun 10-cu maddəsinə uyğun olmaması qeyd olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 20 iyul 2004-cü il tarixli, 11/2076 saylı məktubu ilə Birliyin qeydiyyatından yenidən imtina edilmişdir. Məktubda sənədlərin «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 5-ci maddəsinə zidd olaraq təqdim edildiyinə əsaslanılaraq qeydiyyatın mümkün olmaması göstərilmişdir.

İctimai Birliyin növbəti müraciətdən sonra isə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 01 sentyabr 2004-cü il tarixli, 11/2591 saylı məktubuna əsasən İctimai Birliyin qeydiyat sənədlərinə baxılması müddəti 30 gün artırılmışdır. İctimai Birliyin qeydiyyatının sonrakı mərhələlərdəki vəziyyəti bəlli deyil.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 04 iyun 2004-cü il tarixli, 11/1591 və 01 sentyabr 2004-cü il tarixli, 11/2591 saylı məktublarında İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətinin 30 gün artırılması üçün müstəsna halın nədən ibarət olduğu izah edilməmişdir.

Ədliyyə Nazirliyi dövlət qeydiyyatından imtina məktublarını əsaslandırmamış və ancaq qanunun müəyyən maddəsini sadalamaqla kifayətlənmişdir.

## 17. «Hüquqi yardım» İctimai Birliyi

İctimai Birlik 17 iyun 2003-cü il tarixdə Lənkəran şəhərində təsis edilib. Birliyin ilk müraciətinə cavab olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 18 fevral 2004-cü il tarixli, 11/573 saylı məktubuna əsasən İctimai Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır.

Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi Mülki Məcəllənin 47.1-ci maddəsinin tələblərinə zidd olaraq ictimai birliyin nizamnaməsinin təsisçilər tərəfindən təsdiq edilməməsi və «Qeyri-hökümət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Qanununun 10.3-cü maddəsinin tələblərinə zidd olaraq ictimai birliyin üzvlüyünə xitam verilməsindən birliyin daxilində və məhkəməyə şikayət etmə hüququna təminat verilməməsi qeyd olunmuşdur.

Ədliyyə Nazirliyinin iradlarını qəbul edən təşkilat sənədlərə müvafiq dəyişikliklər etdikdən sonra yenidən Ədliyyə Nazirliyinə müraciət etmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 20 aprel 2004-cü il tarixli, 11/1106 saylı məktubuna əsasən İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddəti 30 gün artırılmışdır.

Həmin idarənin 20 may 2004-cü il tarixli, 11/1437 saylı məktubunu əsasən isə Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır. Məktubda sənədlərin geri qaytarılmasına

əsas kimi müraciət ərizəsinin «Qeyri-Hökumət təşkilatları (İctimai birliklər və fondlar) Haqqında» Qanunun 15.1-ci maddəsində nəzərdə tutulan 30 günlük müddət ərzində təqdim olunmaması qeyd olunmuşdur.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 20 aprel 2004-cü il tarixli, 11/1106 saylı məktubunda İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətinin 30 gün artırılması üçün müstəsna halın nədən ibarət olduğu izah edilməmişdir.

İctimai Birliyin üzləşdiyi digər problem isə, QHT-nin qeydiyyatının Ədliyyə Nazirliyinin, Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə şöbələrinin olmasına baxmayaraq, Bakıda yerləşən mərkəzi orqanında aparılmasıdır. İctimai birlik Lənkəran şəhərində təsis edilmişdir və hüquqi ünvanı da həmin şəhərdə yerləşir.

## 18. «MEDİA HÜQUQU İNSTİTUTU» İCTİMAİ BİRLİYİ

İctimai Birlik 13 aprel 2004-cü il tarixdə təsis edilib. İctimai Birliyin sənədləri 22 aprel 2004-cü il tarixdə Ədliyyə Nazirliyinə təqdim olunub. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 10 iyun 2004-cü il tarixli, 11/1649 saylı məktubuna əsasən İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddəti 30 gün artırılmışdır.

Həmin idarənin 15 iyul 2004-cü il tarixli, 11/2039 saylı məktubu ilə Birliyin sənədləri icrasız geri qaytarılmışdır. Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi Mülki Məcəllənin 131.4-cü maddəsinə zidd olaraq qeydiyyata verilən faktların və saxlanmağa verilən sənədlərin düzgünlüyünün təsdiq edilməməsi qeyd olunmuşdur.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 8-ci maddəsində göstərilən müddətlərə Ədliyyə Nazirliyinin riayyət etməməsi. Məsələn, İctimai birlik Ədliyyə Nazirliyinə 22 aprel 2004-cü il tarixdə müraciət etməsinə baxmayaraq sənədlərin baxılma müddətinin uzadılması barədə qərar 10 iyun 2004-cü il tarixdə qəbul edilmişdir, yəni 30 iş günündən artıq müddət keçdikdən sonra.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 10 iyun 2004-cü il tarixli, 11/1649 saylı məktubunda İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətinin 30 gün artırılması üçün müstəsna halın nədən ibarət olduğunun izah edilməməsi;

Ədliyyə Nazirliyinin aşgar etdiyi dövlət qeydiyyatından imtina üçün səbəb olmayan çatışmamazlıqların aradan qaldırılması üçün əlavə müddət təyin edilmədən sənədlərin geri qaytarılması. Formal olaraq Ədliyyə Nazirliyi İctimai birliyin müraciət ərizəsində «Qeydiyyata verilən faktların və saxlanmağa verilən sənədlərin düzgünlüyünü təsdiq edirəm» cümləsinin olmamasına görə qeydiyyatdan imtina edib.

19. «SAKİNLƏRİN ƏRAZİ ÜZRƏ SOSİAL İQTİSADİ HÜQUQLARININ MÜDAFİƏSİ» İCTİMAİ BİRLİYİ

İctimai Birlik 01 avqust 1999-cü il tarixdə təsis edilib. İctimai Birliyin sənədləri 08 sentyabr 2003-cü il tarixdə Ədliyyə Nazirliyinə təqdim olunub. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 17 fevral 2004-cü il tarixli, 11/557 saylı məktubuna əsasən İctimai Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır.

Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Qanunun 12.2-ci maddəsinə zidd olaraq ictimai birliyin təsis yığıncağında onun nizamnaməsinin qəbul edilmədiyi və qanunn 25.1-ci maddəsinə zidd olaraq NTK-da qərarların qəbulu qaydasının göstərilməməsi qeyd olunmuşdur.

İctimai Birlik 22 aprel 2004-cü il tarixdə sənədləri yenidən Ədliyyə Nazirliyinə təqdim etmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı

İdarəsinin 13 iyul 2004 cü il tarixli, 11/2008 saylı mətubuna əsasən Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır.

Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 5.2. və 5.4.1-ci maddələrinin tələblərinə zidd olaraq müraciət ərizəsinin notariat qaydasında təsdiq olunmaması, təşkilatın yaradılması və nizamnaməsinin təsdiq edilməsi haqqında qərarın bütün təsisçilər tərəfindən imzalanmaması qeyd olunmuşdur.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

İctimai Birliyin sənədləri Qanunun tələblərinə uyğun qaydada tərtib olunmayıb- sənədlər notarial qaydada təsdiq olunmayıb və Nizamnamənin təsdiq edilməsi barədə qərar bütün təsisçilər tərəfindən imzalanmayıb.

Ədliyyə Nazirliyi aşgar etdiyi dövlət qeydiyyatından imtina üçün səbəb olmayan çatışmamazlıqların, yəni nizamnamənin təsisçilər tərəfindən təsdiq olunmamasının və nizamnamədə ictimai birliyin fəaliyyət ərazisinin göstərilməməsinin aradan qaldırılması üçün əlavə müddət təyin etmədən sənədləri geri qaytarıb.

## 20. «Cənub regionun sosial və iqtisadi inkişafı» İctimai Birliyi

İctimai Birlik 22 iyul 2002-ci il tarixdə Masallı şəhərində təsis edilib. İctimai Birliyin sənədləri 05 sentyabr 2002-ci il tarixdə Ədliyyə Nazirliyinə təqdim olunub. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 8 yanvar 2003-cü il tarixli məktubuna əsasən İctimai Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır.

İctimai Birlik 23 mart 2004-cü il tarixdə sənədləri yenidən Ədliyyə Nazirliyinə təqdim etmişdir. İctimai birliyin ərizəsindən aydın olur ki, 19 avqust 2004-cü il tarixədək Ədliyyə Nazirliyi tərəfindən hər-hansı bir cavab məktubu Birliyə göndərilməmişdir.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

Ədliyyə Nazirliyinin cavab məktublarının surətləri monitorinq üçün təqdim olunmadığından tam rəy vermək mümkün olmamışdır.

İctimai Birliyin qarşılaşdığı problem isə, QHT-nin qeydiyyatının Ədliyyə Nazirliyinin, Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə şöbələrinin olmasına baxmayaraq, Bakıda yerləşən mərkəzi orqanında aparılmasıdır. İctimai birlik Masallı şəhərində təsis edilmişdir və hüquqi ünvanı da həmin şəhərdə yerləşir.

## 21. STRATEJİ TƏHQİQATLAR MƏRKƏZİ İCTİMAİ BİRLİYİ

İctimai Birlik 15 fevral 2004-cü il tarixdə təsis edilib. İctimai Birliyin sənədlərinin Ədliyyə Nazirliyinə təqdim olunma tarixi bəlli deyil. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 19 aprel 2004-cü il tarixli məktubuna əsasən İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddəti 30 gün artırılmışdır.

Həmin idarənin 31 may 2004-cü il tarixli məktubuna əsasən isə Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır. Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi ərizələrin notarial qaydada təsdiq olunmaması və Birliyin Nizamnaməsinin bütün təsisçilər tərəfindən təsdiq olunmaması qeyd olunmuşdur.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 31 may 2004-cü il tarixli məktubunda İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətinin 30 gün artırılması üçün müstəsna halın nədən ibarət olduğu izah edilməmişdir.

Ədliyyə Nazirliyi aşgar etdiyi dövlət qeydiyyatından imtina üçün səbəb olmayan çatışmamazlıqların, yəni ərizələrin notarial qaydada təsdiq olunmamasının və

nizamnamənin təsisçilər tərəfindən imzalanmamasının aradan qaldırılması üçün əlavə müddət təyin etmədən sənədləri geri qaytarıb.

## 22. «Azərbaycan naminə Hərəkat» İctimai Birliyi

İctimai Birlik 08 may 2004-cü il tarixdə təsis edilib. İctimai Birliyin sənədləri 08 iyun 2004-cü il tarixdə Ədliyyə Nazirliyinə təqdim olunub. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 22 iyul 2004-cü il tarixli məktubuna əsasən İctimai Birliyin sənədlərinə baxılması müddəti 30 gün artırılmışdır.

Həmin İdarənin 30 avqust 2004-cü il tarixli məktubuna əsasən İctimai Birliyin sənədləri icra olunmadan geri qaytarılmışdır. Məktubda sənədlərin geri qaytarılmasına əsas kimi Ədliyyə Nazirliyinə təqdim olunan ərizədə təsisçilərin ünvanlarının, onların şəxsiyyəti təsdiq edən sənədlərinin seriyalarının, verilmə tarixinin və səlahiyyəti təsdiq edən sənədin göstərilməməsi qeyd olunmuşdur.

İctimai Birlik 08 sentyabr 2004-cü il tarixdə sənədləri yenidən Ədliyyə Nazirliyinə təqdim etmişdir. Ədliyyə Nazirliyinin sonrakı məktublarının olub-olmaması aydın deyil.

Bu təşkilatın təsis sənədlərinin və qeydiyyat orqanının cavab məktublarının ekspertizası aşağıdakı rəyə gəlməyə imkan verir:

«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 8-ci maddəsində göstərilən müddətlərə Ədliyyə Nazirliyinin riayyət etməmişdir. Məsələn, İctimai birlik Ədliyyə Nazirliyinə 08 iyun 2004-cü il tarixdə müraciət etməsinə baxmayaraq sənədlərin baxılma müddəti barədə qərar 22 iyul 2004-cü il tarixdə qəbul edilmişdir, yəni 30 iş günündən artıq müddət keçdikdən sonra.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin dövlət qeydiyyatı İdarəsinin 22 iyul 2004-cü il tarixli məktublarında İctimai Birliyin qeydiyyat sənədlərinə baxılması müddətinin 30 gün artırılması üçün müstəsna halın nədən ibarət olduğu izah edilməmişdir.

Ədliyyə Nazirliyi aşgar etdiyi ərizədə təsisçilərin ünvanlarının, onların şəxsiyyətini təsdiq edən sənədlərin seriyalarının, verilmə tarixinin və səlahiyyəti təsdiq edən sənədin göstərilməməsi kimi dövlət qeydiyyatından imtina üçün səbəb olmayan çatışmamzlıqların aradan qaldırılması üçün əlavə müddət təyin etmədən sənədləri geri qaytarmışdır.